# AVROPA İTTİFAQI (Aİ)

Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın tarixi 1993-cü ildən başlanır. Məhz həmin ilin fevral ayında bu beynəlxalq təşkilatla ölkəmiz arasında əlaqələr qurulub. 1993-cü ilin aprel ayının 7-də AB Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanatla çıxış etmişdir. Həmin bəyanatda təşkilata üzv ölkələr münaqişənin dərinləşməsindən narahatlıq keçirdiklərini, Kəlbəcər və Füzuli rayonlarında əməliyyatların genişlənməsindən təəssüfləndiklərini ifadə etmişdilər. Lakin bu bəyanatda Ermənistanın respublikamızın ərazilərini işğal etməsi faktına dair heç bir konkret münasibət ifadə olunmur və münaqişənin əsl səbəbləri barədə fikir bildirilmirdi. AB məsələyə daha çox neytral mövqedən yanaşmağa və təcavüzkarın kim olduğunu etiraf etməməyə çalışırdı.

Həmin ilin sentyabr ayında Ermənistanın işğalçı qüvvələrinin cəbhə bölgəsində yeni əməliyyatlar keçirilməsi qurumu daha bir bəyanatla çıxış etməyə məcbur etdi. Bu sənəddə ermənilərin Azərbaycana qarşı hərbi hücumları pislənilir və qaçqınların sayının həddən artıq çoxalmasından narahatlıq ifadə olunurdu. AB ATƏM-in Minsk qrupunun bölgədə sülhün əldə edilməsi istiqamətində səylərini də dəstəkləyir və tərəfləri bu prosesin həyata keçməsi üçün əlverişli şərait yaratmağa çağırırdı. Təşkilat BMT qətnamələrinə hörmət göstərilməsini hər iki tərəfdən tələb, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarından qoşunların çıxarılmasının zəruriliyini qeyd edirdi. Bundan başqa, bəyanatda Ermənistandan Azərbaycan ərazilərinə hücum edən yerli erməni qüvvələrinə yardım göstərməmək də tələb olunurdu.

Lakin bu sənəddə qüsurlu məqamlar çox idi. Çünki Azərbaycanda hərbi əməliyyatları yerli ermənilər deyil, Ermənistan ordusu həyata keçirirdi.

"Birlik və onun üzvü olan dövlətlər atəşin müvəqqəti dayandırılmasını (1993-cü il avqustun 31-də Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan hökuməti arasında bu barədə qərar qəbul edilmişdir) möhkəmlətmək üçün ATƏM çərçivəsində Minsk qrupunun göstərdiyi səylərə tamamilə tərəfdar çıxırlar. Onlar hər iki tərəfi ikitərəfli dialoqun əlavə olaraq hər hansı formasına başlamağa çağırırlar. Elə bir dialoqa ki, iyun ayının axırlarında bütün tərəflərin prinsipial sazişə nail olduqları cədvəlin yerinə yetirilməsinin mümkünlüyünü gücləndirir. Birlik və onun üzvü olan dövlətlər, həmçinin istədilər ki, Dağlıq Qarabağda yerli erməni qüvvələri BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinə hörmət göstərsin. Onlar Kəlbəcər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarından qoşunların çıxarılmasını tələb edirlər. Birlik və onun üzvü olan dövlətlər Azərbaycanın həmin bölgələrdən hücumlar hazırlamağa qadir olduğuna dair dəlillərə malik deyildirlər", - deyə sənəddə vurğulanır. Göründüyü kimi, sənəddə münaqişənin mahiyyəti barədə heç bir dəqiq məlumat yoxdur. Bununla yanaşı, AB təcavüzkarın kim olduğunu da göstərməmişdi.

1993-cü ilin 9 noyabrında AB Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair növbəti bəyanatını qəbul etdi və bu sənəd də əvvəlkilərdən fərqlənmədi. Təşkilat toqquşmaların güclənməsindən narahatlıq keçirdiyini və qaçqınların sayının artmasının bölgədə gərginliyin çoxalmasına gətirib çıxaracağını vurğulayırdı. "Avropa Birliyi 1993-cü il oktyabrın 24-də Dağlıq Qarabağ bölgəsində atəşkəs haqqında sazişin pozulmasını pisləyir və bu yaxınlarda işğal olunmuş ərazilərdən bütün qüvvələri çıxarmağa çağırır. AB ATƏM-in prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir. AB silahlı toqquşmalardan qaçmaqla canını qurtaran on minlərlə mülki şəxsin taleyindən, xüsusilə narahatdır. Həmin qaçqınların qəbulu və müdafiə edilməsi beynəlxalq birliyin üstün vəzifələrindən olmalıdır. Bundan əlavə, bu qaçqınların olması münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırır və bütün regionun sabitliyi üçün qorxu törədir. Avropa Birliyi zərər çəkmiş əhaliyə bundan sonra da humanitar yardım göstərəcəkdir. Bununla əlaqədar o, regionun bütün dövlətlərini yardımın çatdırılmasına kömək etməyə çağırır", - deyə sənəddə bildirilir.

Ümumiyyətlə. Avropa Birliyi münaqişə ilə o qədər də dərindən maraqlanmamış və bu prosesə dair qəti mövqeyini bildirməyə ciddi meyl göstərməmişdir. Çünki münaqişələrin həlli məsələsi AB-nin fəaliyyət strategiyasına daxil deyildir. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, ilk vaxtlarda təşkilat, ümumiyyətlə, Cənubi Qafqaza və buradakı proseslərə çox az maraq göstərirdi. AB sırf iqtisadi birlik kimi nəzərdə tutulduğundan siyasi məsələlər, o cümlədən münaqişələrlə bağlı həmişə ehtiyatlı mövqe nümayiş etdirməyə çalışır.

Bununla belə, AB-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini ifadə edən ən əsas hadisələrdən biri 2003-cü ildə baş verdi. Təşkilat münaqişənin həlli üçün kommunikasiya xətlərinin açılması müqabilində Azərbaycanın işğal olunmuş rayonlarından 5-nin geri qaytarılmasını təklif etdi. Bu təklif uzun müddət müzakirə obyekti oldu və bu gün də öz aktuallığını saxlamaqdadır. AB-nin həm regionla əlaqələri inkişaf etdirmək, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında fəal iştirak etmək niyyəti kifayət qədər ciddi məsələyə çevrilib. Bu, süni prosesinin daha geniş müstəviyə çıxarıldığını və problemin beynəlxalq birliyi narahat etdiyini ortaya qoyur.

Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü ildə Belçikaya işgüzar səfəri zamanı Avropa Komissiyasının sədri Roman Prodi ilə görüşündə ölkəmizlə AB arasında əməkdaşlığın genişləndirilməsi və təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə təkan verməsinin mümkünlüyü ilə bağlı müzakirələr aparılmışdı.[1]

Görüşün ümumi yekunu isə bundan ibarət oldu ki, AB Ermənistanla Azərbaycan arasında beynəlxalq hüququn bütün prinsiplərini nəzərə alan sülh əldə edilməsində maraqlıdır və bunun üçün konkret addımlar atmağa hazırdır. Azərbaycan Prezidentinin Avropa Birliyi Şurasının Baş katibi Xavyer Solana ilə keçirilən görüşündə də bu mövzuya geniş toxunuldu.

Bütün bunlar bir daha göstərir ki, ayrı-ayrı dövrlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə dair beynəlxalq təşkilatlar müxtəlif sənədlər, qətnamələr, bəyanatlar qəbul etsə də, hələ də işğalçı dövlət öz mövqelərindən geri çəkilmir. Bu, beynəlxalq birliyin təcavüzkarı layiq olduğu formada cəzalandırmaq istəməməsinin nəticəsi kimi qiymətləndirilə bilər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün yalnız bir yol var ki, bu da beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərinə bu ölkənin də riayət etməsinə nail olmaqdır.

## Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri

Azərbaycanın xarici siyasətinin əsas üstünlüklərindən birini Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıq təşkil edir. Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın strateji mövqeyi Aİ-nın üzv dövlətlərinin Azərbaycanla siyasi və iqtisadi münasibətləri inkişaf etdirmək marağını artırır.

Aİ öz Xüsusi Elçisini 1998-ci ildə Azərbaycana göndərmiş və Azərbaycan Aİ-da öz Daimi Nümayəndəliyini 2000-ci ildə açmışdır. Hazırda Azərbaycan Respublikasının Aİ yanında Daimi Nümayəndəsi vəzifəsini Fövqəladə və Səlahiyyətli Səfir Arif Məmmədov yerinə yetirir. Aİ-nin Azərbaycan Respublikasındakı Xüsusi Elçisi isə Antonuis de Vriesdir.

7 iyul 2003-cü il tarixində Avropa İttifaqının regiondakı rolunun daha da aktivləşdirilməsi məqsədilə Aİ-nin Cənubi Qafqaz üzrə Xüsusi Nümayəndəsi təyin olundu. Hal-hazırda bu vəzifəni Heyki Talvitye (Finlandiya) icra edir.

1991-ci ildən bəri Azərbaycan Aİ-dən 400 milyon avro dəyərində humanitar, texniki, ərzaq yardımı almışdır.

Aİ üzv dövlətləri və Azərbaycan arasında 22 iyun 1999-cu ildə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) (22 aprel 1996-cı ildə Lüksemburqda imzalanmışdır) qüvvəyə minmişdir ki, bu da tərəflər arasında yüksək səviyyəli əməkdaşlığın təşəkkül tapmasını təsdiqləyir.

Müqavilənin məqsədləri aşağıdakılardır:

- Müvafiq siyasi dialoq çərçivəsində tərəflər arasında siyasi münasibətlərin inkişafının təmin edilməsi;
- Azərbaycanda demokratiyanın möhkəmlənməsi, iqtisadi inkişaf və bazar iqtisadiyyatına keçid cəhdlərinin dəstəklənməsi;
- Ticarət və investisiyanın inkişafı, iqtisadi, sosial, maliyyə, elmi, texniki və mədəni əməkdaşlıq

TƏS-də nəzərdə tutulduğu kimi, Aİ-Azərbaycan Əməkdaşlıq Şurası (illik keçirilir) əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirir və Əməkdaşlıq Komitəsi (illik keçirilir) Şuraya tövsiyələr verməklə kömək edir. Ticarət və İnvestisiya Məsələləri üzrə Alt Komitə isə Əməkdaşlıq Komitəsinin nəzdində fəaliyyət göstərir və TƏS əsasında ticarət, investisiya və iqtisadi əməkdaşlığa dair digər məsələləri müzakirə edir.

İndiyə kimi Əməkdaşlıq Şurasının 6 toplantısı (12 oktyabr 1999, 10 oktyabr 2000, 30 oktyabr 2001, 1 oktyabr 2002, 30 sentyabr 2003, 14 sentyabr 2004), Əməkdaşlıq Komitəsinin 5 toplantısı (27 mart 2000, 25 iyun 2001, 12 iyul 2002, 9 iyun 2003, 8 iyun 2004), Alt Komitənin 4 toplantısı (21 iyul 2000, 30 aprel 2002, 14 mart 2003, 22 aprel 2004) keçirilmişdir.

Bundan əlavə, TƏS-in 86-cı maddəsinə uyğun olaraq, ildə bir dəfə Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin iclasları keçirilir. Aİ-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin bu günə kimi 5 toplantısı (17-18 aprel 2000, 21-22 may 2001, 25-26 fevral 2002, 28-29 aprel 2003, 17-18 noyabr 2004) keçirilmişdir.

2004-cü il 17-18 iyun tarixlərində Avropa İttifaqı dövlət və hökumət başçıları Şurasının Brüsseldə keçirilmiş toplantısında Avropa Komissiyasının Cənubi Qafqaz ölkələrinin Avropa Qonşuluq Siyasətinə (AQS) cəlb olunmasına dair tövsiyəsi təsdiq olunmuşdur. Avropa Qonşuluq Siyasətinin Azərbaycan üçün yaratdığı imkanlar:

- Siyasi, iqtisadi və inzibati islahatların səmərəli şəkildə həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsində konkret irəliləyişlərə nail olunması müqabilində Aİ-nin daxili bazarında müəyyən paya sahib olmaq imkanı;
- Paralel olaraq, vətəndaşların, əmtəənin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya və liberalizasiya prosesləri;
- Aİ ölkələri ilə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, investisiyaların təşviqi imkanları, yeni maliyyə mənbələri, Ümumdünya Ticarət Təşkilatına üzvlüyün dəstəklənməsi və s.

Aİ TACİS proqramı çərçivəsində müvafiq texniki və ekspert köməyi vasitəsilə Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyir. TACİS proqramı (MDB ölkələrinə texniki yardım) 12 keçmiş Sovet İttifaqı dövləti və Monqolustana texniki yardım dəstəyini təmin etmək üçün 1991-ci ildə yaradılmışdır. TACİS proqramının Azərbaycanla bağlı hissəsində əməkdaşlığın üç əsas istiqamətinə üstünlük verilir: infrastruktur, özəl sektor və insan resurslarının inkişafı. TACİS-in Azərbaycanla əlaqədar əsas çoxtərəfli şəbəkə layihələri TRACECA və İNOGATE-dir.

TRACECA (Avropa-Qafqaz-Asiya nəqliyyat koridoru) Brüsseldə 1993-cü ilin mayında keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin Konfransında təsis olunmuşdur. Bu təşkilatın məqsədi-qeyd edilən dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə

onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək və üzv dövlətlər arasında sonrakı regional əməkdaşlığı stimulə etməkdən ibarətdir.

8 sentyabr 1998-ci ildə Bakıda Azərbaycan və Gürcüstan Prezidentlərinin təşəbbüsü və Aİ-nın TACİS-TRACECA proqramının dəstəyi ilə “Tarixi İpək Yolunun bərpası” adlı beynəlxalq konfrans keçirilmişdir. 32 ölkə və 12 beynəlxalq təşkilat nümayəndələri bu konfransda iştirak etmişlər. Konfransda əldə edilmiş ən mühüm nailiyyət Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkiyə, Ukrayna, Moldova, Rumıniya və Bolqarıstanın “Avropa-Qafqaz-Asiya Nəqliyyat Koridorunun inkişafı üçün əsas Beynəlxalq Nəqliyyat çoxtərəfli Müqavilə” (Əsas razılaşma) və Əsas Razılaşmanın əsasında olan Texniki Əlavə sənədlər:

- beynəlxalq dəmiryolu nəqliyyatı
- beynəlxalq yol nəqliyyatı
- beynəlxalq kommersiya dəniz gəmiçilik naviqasiyası
- gömrük prosedurаları və sənədlərin təhvili

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əsas razılaşma və Texniki Əlavələrin Depozitarıdır.

Əsas razılaşmanın müddəalarının tətbiqi və icrası ilə bağlı məsələlərin tənzimlənməsi üçün üzv dövlətlər Hökumətlərarası Komissiyanın (HK) yaradılması razılığına gəlmişlər. HK üzv-dövlətlərin nümayəndələrinin təmsilçiliyi əsasında Əsas razılaşmaya əsasən yaradılmış və qərar qəbul etmək səlahiyyətinə malik olan orqandır.

21 fevral 2001-ci ildə Avropa İttifaqının (Aİ) yüksək rəsmilərinin iştirakı ilə HK TRACECA Daimi Katibliyinin Ofisinin Bakıda açılışı keçirilmişdir. İştirakçılar arasında Xarici İşlər Naziri, İsveçin Aİ-dakı sədrliyinin nümayəndəsi Anna Lind, Aİ-nin Xarici Münasibətlər üzrə Komissarı Kristofer Patten, Aİ-nin Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Xaviyer Solana olmuşdur.

TRACECA layihəsi Azərbaycanla 25 texniki və 11 investisiya layihəsinin həyata keçirilməsini dəstəkləyir ki, bu layihələrin 26-da Azərbaycanın payı ümumilikdə 100 milyon avro məbləğindən də artıqdır.

İNOGATE (Avropaya dövlətlərarası neft və qaz ixracı) Aİ-nın yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional təşəbbüsdür. 1999-cu ilin iyul ayında 15 dövlətin (Azərbaycan da daxil olmaqla) iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi İNOGATE-nin əsas hüquqi bazasını təşkil edir.

Proqramın 1-ci fazası ümumi məbləği 50 milyon avrodan artıq olan 10 layihənin həyata keçirilməsini nəzərdə tutur ki, bu layihələrdən 5-i bilavasitə Azərbaycanla əlaqədardır. İNOGATE yeni müstəqil dövlətlər və Azərbaycana münasibətdə trans-sərhəd layihələrinin həyata keçirilməsi üçün yeni perspektivlər yaradır və hidrokarbon mənbələrinin tranziti ilə bağlı beynəlxalq razılaşmaların üstünlükləri əsasında beynəlxalq maliyyə institutları və xüsusi investisiya fondları tərəfindən investisiyanın cəlb edilməsi məqsədləri üçün katalizator rolunu oynayır.

**Avropa İttifaqı**
**Brüssel, 22 may 1992-ci il. Dağlıq Qarabağa dair bəyanat**

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ regionunda döyüşlərin son vaxtlar intensivləşməsi ilə bağlı dərin narahatlığını bildirir və hər hansı bir tərəfdən güc tətbiq edilməsini qəti şəkildə pisləyir. Birlik və ona üzv olan dövlətlər davamlı döyüşlər nəticəsində əhalinin yenidən üzləşdiyi əzab-əziyyətdən və insan tələfatından təəssüflənir.

Dağlıq Qarabağın erməni və Azərbaycan əhalisi daxil olmaqla, Ermənistan və Azərbaycan xalqları, hər iki hökumətin ATƏM-in prinsip və öhdəliklərini qəbul etdikləri nəticəsində, eyni səviyyəli mühafizə ilə təmin olunmaq hüququna malikdirlər. Buna görə də Birlik və ona üzv olan dövlətlər qəbul edilmiş prinsip və öhdəliklərə zidd olaraq ərazi bütövlüyünə qarşı və ya, mülki əhalinin daimi yaşayış yerlərindən qovulması da daxil olmaqla, siyasi məqsədlərə nail olmaq üçün gücə əsaslanan hərəkətləri pisləyir. Azərbaycan və erməni əhalisinin fundamental hüquqları mövcud sərhədlər məzmununda tam şəkildə bərpa edilməlidir.

Birlik və ona üzv olan dövlətlər Ermənistan və Azərbaycana müraciət edərək, maksimal dərəcədə təmkinlik nümayiş etdirməyə və ATƏM prosesinə konstruktiv töhfə verməyə çağırır. Bu mənada Birlik və ona üzv olan dövlətlər bütün tərəfləri Dağlıq Qarabağ üzrə ATƏM-in Sülh Konfransının tezliklə keçirilməsi istiqamətində iş aparmağa və Dağlıq Qarabağ icmalarının təmsil olunmaları şərtlərinə dair razılıq əldə etməyə dəvət edir ki, onsuz davamlı sülhün bərqərar olması mümkün deyil.

**Avropa İttifaqı**
**Brüssel, 18 iyun 1992-ci il. Dağlıq Qarabağa dair bəyanat**

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda davam edən döyüşlər ilə bağlı dərin narahatlığını bildirir. Birlik və ona üzv olan dövlətlər böhranın həllinə qətiyyən kömək etməyən hər hansı gücün tətbiq edilməsini ciddi şəkildə pisləyir. Onlar böhrana qatılan tərəfləri təmkinliliyə dəvət edir və növbəti əzab-əziyyət və ya insan tələfatı ilə nəticələnən hərəkətlərdən çəkinməyə çağırır.

Birlik və ona üzv olan dövlətlər aidiyyəti olan hökumətləri nüfuzlarından istifadə edərək baş verən dəhşətli zorakılığa son qoymağa və davamlı atəşkəsə nail olmağa çağırır.

Birlik və ona üzv olan dövlətlər Ermənistan və Azərbaycana bir daha müraciət edərək ATƏM-ə daxil olarkən götürdükləri öhdəliklərə əsasən insan hüquqlarına hörmət etməyə çağırır. Onlar tərəfləri regionda sülhü bərpa etməyin ən yaxşı ümidini təklif edən ATƏM-in himayəsi altında Minsk Konfransının tezliklə keçirilməsinin zəruri şərtlərinin yaradılması üçün Romada ilkin fövqəladə görüş çərçivəsində göstərilən səylərə töhfə verməyə çağırır.

**Avropa İttifaqı**
**Brüssel, 7 aprel 1993-cü il. Dağlıq Qarabağa dair bəyanat**

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin son zamanlarda kəskin şəkildə pisləşməsindən dərin narahatçılıq keçirir. Birlik və ona üzv olan dövlətlər hərbi əməliyyatların Kəlbəcər və Fizuli rayonları ərazisinə yayılmasından təəssüfləndiyini bildirir. Azərbaycan ərazilərindən dərhal çıxarılması və bu ərazilərdə döyüşlərin dayandırılması məqsədilə Ermənistan hökuməti Dağlıq Qarabağın hərbi birləşmələri üzərində olan təsirindən istifadə etməyə qətiyyətlə çağırılır. Cərəyan edən son hadisələrə baxmayaraq, bütün tərəflərdən ATƏM-in Minsk qrupunda aparılan danışıqları tərk etməməyi xahiş edilir.

**Avropa İttifaqı**
**Brüssel, 24 iyun 1993-cü il. Dağlıq Qarabağa dair bəyanat**

Birlik və ona üzv olan dövlətlər cənab Rafaellinin təqdim etdiyi ATƏM planının Dağlıq Qarabağ mübahisəsinin bütün iştirakçıları tərəfindən qəbul edilməsini alqışlayır. Onlar inanırlar ki, sözügedən plan regionda hərtərəfli atəşkəs, BMT TŞ-nın 30 aprel 1993-cü il tarixli 822 saylı qətnaməsinin həyata keçirilməsi və Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə həlli istiqamətində əsil irəliləyiş üçün ən yaxşı ümiddir. Onlar Dağlıq Qarabağda erməni icması nümayəndələrinin plana razılıqlarını təmin etmək məqsədilə Ermənistan prezidenti Ter Petrosyanın uğurlu şəxsi müdaxiləsini yüksək qiymətləndirilər.

Birlik və ona üzv olan dövlətlər ümid edirlər ki, Ermənistan hökuməti Dağlıq Qarabağda sülh planını hələ qəbul etməyən elementlər tərəfindən onu tam şəkildə qəbul etmək və Azərbaycanda Dağlıq Qarabağ və onun ətrafındakı indiki daxili çətinliklərdən sui-istifadə etməkdən çəkinmək çağırışlarını davam etdirəcəkdir. Birlik və ona üzv olan dövlətlər xəbərdarlıq edirlər ki, hazırkı vəziyyətdə hər hansı bir tərəfin hücum əməliyyatı sülh planını təhlükə altına sala bilər.

Birlik və ona üzv olan dövlətlər münaqişə tərəflərini planı tam şəkildə dəstəkləməyə çağırır ki, bu, ATƏM-in müşahidəçi missiyasının yerləşdirilməsinin ilk mərhələsini asanlaşdırar. Onlar həmçinin tərəfləri qoşunların işğal edilmiş ərazilərdən çıxarılmasını qəbul etməyə razılıq və ATƏM müşahidəçilərin ərazilərdə yerləşdirildiyi andan təhlükəsizliyinə təminat verməyə təkid edirlər.

**Avropa Birliyinin Dağlıq Qarabağa dair bəyanatı**
**(Brüssel, 3 sentyabr 1993-cü il)**

Birlik və onun üzvü olan dövlətlər Azərbaycan ərazisinin içərilərinə doğru getdikcə daha çox irəliləyən Dağlıq Qarabağın yerli erməni qüvvələrinin hücumunu pisləyirlər. Onlar təəssüflə qeyd edirlər ki, bu cür hərəkətlər getdikcə daha çox Azərbaycan ərazisini əhatə edən silahlı münaqişənin sərhədlərini genişləndirir və Azərbaycanda qaçqınların olduqca ciddi problemini yaradır və bununla da qonşu ölkələri məhəlli təhlükəsizlik üçün daim artan qorxu ilə münaqişəyə cəlb edir.

Birlik və onun üzvü olan dövlətlər bölgədə dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə öz sadiqliyini təsdiqləyirlər.

Birlik və onun üzvü olan dövlətlər atəşin müvəqqəti dayandırılmasını (1993-cü il avqustun 31-də Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan hökuməti arasında bu barədə qərar qəbul edilmişdir) möhkəmlətmək üçün ATƏM çərçivəsində Minsk qrupunun göstərdiyi səylərə tamamilə tərəfdar çıxırlar. Onlar hər iki tərəfi ikitərəfli dialoqun əlavə olaraq hər hansı formasına başlamağa çağırırlar. Elə bir dialoqa ki, iyun ayının axırlarında bütün tərəflərin prinsipial sazişə nail olduqları cədvəlin yerinə yetirilməsinin mümkünlüyünü gücləndirir.

Birlik və onun üzvü olan dövlətlər, həmçinin itərdilər ki, Dağlıq Qarabağda yerli erməni qüvvələri BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinə hörmət göstərsinlər. Onlar Kəlbəcər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarından qoşunların çıxarılmasını tələb edirlər. Birlik və onun üzvü olan dövlətlər Azərbaycanın həmin bölgələrdən hücumlar hazırlamağa qadir olduğuna dair dəlillərə malik deyildirlər.

Birlik və onun üzvü olan dövlətlər Ermənistan Respublikası hökumətinin Dağlıq Qarabağ ermənilərinə öz həlledici təsirindən istifadə etməyə çağırırlar ki, onlar 822 və 853 saylı qətnamələri və ATƏT-in Minsk qrupunun təkliflərini yerinə yetirsinlər. Birlik və onun üzvü olan dövlətlər Ermənistanı bunu təsdiq etməyə çağırırlar ki, Azərbaycan ərazilərinə hücum edən yerli erməni qüvvələri belə hücumları daha da genişləndirmək üçün maddi vasitələr almayacaqlar.

**Avropa Birliyinin Dağlıq Qarabağa dair bəyanatı**
**(Brüssel, 9 noyabr 1993-cü il)**

Avropa Birliyi 1993-cü il oktyabrın 24-də Dağlıq Qarabağ bölgəsində atəşkəs haqqında sazişin pozulmasını pisləyir və bu yaxınlarda işğal olunmuş ərazilərdən bütün qüvvələri çıxarmağa çağırır. Avropa Birliyi ATƏM-in prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir.

Avropa Birliyi silahlı toqquşmalardan qaçmaqla canını qurtaran on minlərlə mülki şəxsin taleyindən, xüsusilə narahatdır. Həmin qaçqınların qəbulu və müdafiə edilməsi beynəlxalq birliyin üstün vəzifələrindən olmalıdır. Bundan əlavə. bu qaçqınların olması münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırır və bütün regionun sabitliyi üçün qorxu törədir.

Avropa Birliyi zərər çəkmiş əhaliyə bundan sonra da humanitar yardım göstərəcəkdir. Bununla əlaqədar o regionun bütün dövlətlərinə yardımın çatdırılmasına kömək etməyə çağırır.

Avropa Birliyi Dağlıq Qarabağ münaqişəsini möhkəm siyasi vasitələrlə aradan qaldırmaq yollarını axtarmaq məqsədilə ATƏM-in Minsk qrupunun göstərdiyi səyləri bütünlüklə dəstəklədiyini bir daha təsdiq edir. O, münaqişədə iştirak edən tərəfləri 1993-cü il oktyabrın 24-də pozulmuş atəşkəs vəziyyətini bərpa etməyə çağırır.

## Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması mərasimində çıxışı
## (22 aprel 1996-cı il)

Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında bu gün imzalanan saziş gənc müstəqil Azərbaycan dövləti üçün çox böyük əhəmiyyəti olan tarixi bir hadisədir.

Saziş hərtərəfli əməkdaşlığı genişləndirmək və dərinləşdirmək, beynəlxalq sülhü və təhlükəsizliyi, inteqrasiya prinsiplərini möhkəmləndirmək, insan hüquqlarını qorumaq, bütün Avropa qitəsində tərəqqiyə və səmərəli əməkdaşlığa nail olmaq üçün geniş üfüqlər açır.

Azərbaycan Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəsləyir və bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəkdir.

Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir. Qısa bir zaman ərzində bu sahədə xeyli nailiyyətlər əldə edilmişdir. Respublikada otuzdan artıq siyasi partiya fəaliyyət göstərir, siyasi plüralizm, söz azadlığı, mətbuat və vicdan azadlığı bərqərar olmuşdur. Referendum yolu ilə müstəqil Azərbaycanın ilk demokratik konstitusiyası qəbul edilmiş, respublikanın parlamentinə çoxpartiyalı əsasda ilk demokratik seçkilər keçirilmişdir.

Biz azad sahibkarlığa və bazar iqtisadiyyatına əsaslanan geniş miqyaslı iqtisadi islahatlar aparırıq. Mülkiyyətin özəlləşdirilməsinə dair dövlət proqramı qəbul edilib və həyata keçirilir. Özəl sektorun yaradılması və xarici investisiyaların cəlb edilməsi üçün hər cür şərait təmin olunur.

Dünyanın aparıcı şirkətləri ilə imzalanmış sazişlər Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasında mühüm rol oynayır. Xəzər dənizinin Azərbaycan sektorundakı enerji ehtiyatlarının birgə istismarına dair xarici şirkətlərlə bağlanmış neft müqavilələri buna əyani sübutdur.

İqtisadi islahatları həyata keçirmək üçün biz beynəlxalq maliyyə təsisatları və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq edirik. Avropa Birliyi ilə əməkdaşlığa isə xüsusi əhəmiyyət veririk.

Avropa Birliyinin topladığı təcrübə və bu birliyə daxil olan dövlətlərin demokratiyanı inkişaf etdirməkdə, səmərəli iqtisadiyyat yaratmaqda, öz xalqlarının firavanlığını təmin etməkdə qazandıqları müvəffəqiyyətlər gənc müstəqil dövlətlər üçün gözəl nümunədir.

Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və möhkəmləndirmək sahəsində də Avropa Birliyinin böyük nailiyyətləri var. Bir çox kəskin beynəlxalq problemlər barəsində Avropa Birliyinin tutduğu prinsipial mövqelər istər Avropada, istərsə də onun hüdudlarından kənarda münaqişələrin ədalətlə aradan qaldırılmasına dəfələrlə kömək etmişdir. Biz ümid edirik ki, Cənubi Qafqazda mövcud olan problemlərin həllində də Avropa Birliyi daha fəal iştirak edəcək və bu da regionumuzda sülhün və sabitliyin tezliklə bərpa olunmasına öz təsirini göstərəcəkdir.

Azərbaycana qarşı törədilmiş təcavüz nəticəsində ərazimizin iyirmi faizi işğal edilmiş, minlərlə kəndlər, şəhərlər, sosial, xalq təsərrüfatı obyektləri, mədəniyyət abidələri dağıdılmış, yerlə yeksan edilmişdir. İşğal olunmuş ərazilərdən bir milyondan çox Azərbaycan vətəndaşı öz doğma yurdlarından didərgin düşmüş və qaçqın vəziyyətində yaşayır.

Böyük itkilərə, xalqımıza dəyən maddi və mənəvi zərbələrə baxmayaraq, biz Ermənistanla münaqişəni sülh yolu ilə, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar yolu ilə həll etməyin tərəfdarıyıq. Sülhə nail olmaq üçün dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanımaq, beynəlxalq hüquq normalarına əməl etmək lazımdır.

Bu mötəbər məclisdə mən bir daha bəyan edirəm ki, biz bu prinsiplərə bundan sonra da sadiq olacağıq, Ermənistan ilə Azərbaycan arasında sülhün əldə olunmasına çalışacağıq.

Bunun üçün işğal olunmuş bütün Azərbaycan ərazilərindən Ermənistan silahlı qüvvələri çıxmalıdır.

Yerlərindən-yurdlarından didərgin düşmüş qaçqınlar doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan Respublikası Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində müasir dünya təcrübəsində mövcud olan ən yüksək muxtariyyət statusu verməyə hazırdır. İki dövlət arasında sülhün əldə olunması regionda sabitliyi və iqtisadi çiçəklənməni təmin edəcəkdir.

Fürsətdən istifadə edib, Azərbaycana göstərilən humanitar yardım üçün Avropa Birliyinə öz təşəkkürümü bildirirəm. Humanitar yardım hərbi təcavüz nəticəsində ziyan çəkmiş yüz minlərlə adamın vəziyyətini yüngülləşdirmişdir. Ümidvaram ki, Avropa Birliyi gənc dövlətimizin ehtiyaclarının və problemlərinin həll olunmasında bundan sonra da öz xeyirxahlığını əsirgəməyəcəkdir.

Azərbaycan ilə Avropa Birliyinin münasibətlərində yeni səhifə açarkən bir daha bəyan edirəm ki, sülh və sabitlik naminə, Avropa qitəsinin bütün xalqlarının rifahı naminə əlimizdən gələni edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**"Müstəqilliyimiz əbədidir"**
**Altıncı kitab**

## Dağlıq Qarabağ münaqişəsinə dair Avropa İttifaqının mövqeyi
**(Aİ Bülletenlərindən çıxarış)**

Avropa İttifaqı Sədrliyinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda qondarma "prezident seçkiləri"ni pisləyən və münaqişənin sülh yolu ilə həll edilməsinin əsası kimi Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləyən Bəyannaməsi.

**Dağlıq Qarabağda qarşıdan gələn "Prezident seçkiləri"nə dair**
**Avropa İttifaqı adından Sədrliyin Bəyannaməsi**

**Brüssel,**
**2 avqust 2002-ci il.**

Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini təsdiq edir və bir daha bəyan edir ki, o, Dağlıq Qarabağın müstəqilliyini tanımır. Avropa İttifaqı həmişə Dağlıq Qarabağla bağlı Azərbaycan və Ermənistan üçün məqbul sayılan sabit siyasi razılaşmanın əldə edilməsinin zəruriliyini vurğulamışdır. Avropa İttifaqı 11 avqust 2002-ci il tarixində Dağlıq Qarabağda keçirilməsi nəzərdə tutulan "prezident seçkiləri"ni qanuni hesab edə bilməz. Avropa İttifaqı bu seçkilərin sülh prosesinə təsir edəcəyinə inanmır.

Avropa İttifaqı ilə əlaqədə olan Mərkəzi və Şərqi Avropa ölkələri, Kipr, Malta və Türkiyə, Avropa Azad Ticarət Assosiasiyasına üzv olan İslandiya, Lixtenşteyn və Norveç, Avropa İqtisadi Məkanı üzvləri olan ölkələr bu bəyannaməyə qoşulurlar.

### Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin üçüncü iclası 12 iyul 2002-ci il Gələcək ikitərəfli əməkdaşlığın yekunları və qiymətləndirilməsi

**Xarici siyasət**

Avropa İttifaqı və Azərbaycan razıdırlar ki, Azərbaycanın və bütün Cənubi Qafqazın sabitliyi və tərəqqisi ilk növbədə regionda dondurulmuş münaqişələrin həll edilməsindən asılıdır.

Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünə tam hörmət əsasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinin zəruriliyini vurğulayır.

Avropa İttifaqı inanır ki, bu münaqişə və onun həll edilməməsi Azərbaycanın və bütün regionun siyasi və iqtisadi inkişafı və təhlükəsizliyinə güclü mənfi təsir göstərir.

Hər iki tərəf ərazilərin de-fakto işğal edilməsi prinsipinin (fait accompli) münaqişənin həll edilməsinin əsasını təşkil edə bilmədiyinə razılaşdı və Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində nə hazırkı vəziyyətin, nə də status kvo vəziyyətinin gücləndirilməsinə yönəldilmiş tədbirlərin qanuni hesab edilə bilmədiyini vurğuladı.

Avropa İttifaqı işğal olunmuş Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının dirçəldilməsi ilə birlikdə Bakı-Naxçıvan-Yerevan dəmir yolunun bərpasına imkan verəcək Ermənistan silahlı qüvvələrinin bu rayonlardan çıxarılmasına dair münaqişənin həlli və əməkdaşlığın bərpa edilməsi istiqamətində misilsiz tədbirlər paketi olan Azərbaycanın təklifini alqışladı və tərəfləri yaranmış çətin vəziyyətdən çıxmaq üçün bu fürsətdən istifadə etməyə dəvət etdi.

Hər iki tərəf ATƏT-in Minsk qrupunun münaqişənin həlli istiqamətindəki səylərinin əhəmiyyətini tanıyır və gələcəkdə də bu səyləri tam şəkildə dəstəkləyəcəklərinə dair öhdəlik götürür.

Avropa İttifaqı Ümumi Məsələlər Şurasının regionda daha fəal siyasi rol oynamaq niyyətinə dair 26 fevral 2001-ci il tarixli qərarını bir daha təsdiq edir. Avropa İttifaqı ATƏT-in Minsk qrupunun üzvləri, müvafiq beynəlxalq təşkilatlar və region ölkələri ilə sıx əməkdaşlıqda regionda mövcud olan münaqişələrin qarşısının alınması və həll edilməsinə yönəlmiş səyləri dəstəkləmək yollarını arayacaq və münaqişədən sonrakı bərpa işləri prosesində iştirak edəcək.

Avropa İttifaqı özünün regionda maraqlı olan bütün ölkələr, xüsusilə Rusiya və ABŞ ilə münasibətlərində Cənubi Qafqazda sülh və sabitliyin bərqərar edilməsinə yönəlmiş inkişafın təmin edilməsinə səy göstərəcək.

**Bülleten Aİ 01-1994 (fr): 1.3.7**
**Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (7/20)**

**Azərbaycan**

1.3.7. Avropa İttifaqının Sədrliyi adından Azərbaycandakı vəziyyət ilə bağlı 17 yanvar tarixində Afina və Brüssel şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı dekabr ayının ortalarından etibarən Dağlıq Qarabağ regionunda irimiqyaslı döyüşlərin yenidən başlanması ilə bağlı dərin narahatlıq hissi keçirir. Avropa İttifaqı mövcud tərəfləri təmkinlilik nümayiş etdirməyə və artıq müharibə nəticəsində əziyyət çəkmiş insanlara yenidən əzab verməməyə çağırır.

Avropa İttifaqı bir daha Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəklədiyini bildirir və münaqişənin sülh yolu ilə nizamlanmasına dəvət edir. Məsələnin beynəlxalq xarakter alması təhlükəsini nəzərə alaraq, Avropa İttifaqı aidiyyəti olan tərəfləri döyüşləri dayandırmağa və BMT TŞ müvafiq qətnamələrinə əməl etməyə çağırır. Avropa İttifaqı tam şəkildə dəstəklədiyi, ATƏM-in Mİnsk Qrupu çərçivəsində münaqişə tərəfləri arasında aparılan danışıqları ən qısa zamanda yenidən başlamağa çağırır."

**Bülleten Aİ 07-1994**
**Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (6/24)**

**Dağlıq Qarabağ**

1.3.5. Avropa İttifaqının Sədrliyi adından Dağlıq Qarabağa dair 5 avqust tarixində Brüssel və Bon şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı 12 may 1994-cü ildən etibarən qüvvədə olan atəşkəsin Ermənistan və Azərbaycan Müdafiə Nazirləri, habelə Dağlıq Qarabağın hərbi birləşmələri tərəfindən 27 iyul 1994-cü il tarixində yazılı şəkildə təsdiq edilməsini təqdirəlayiq olduğunu bəyan edir. Münaqişə iştirakçılarının atdığı bu addım gələcəkdə məsələnin qarşılıqlı razılıq əsasında siyasi nizamlanmasına xidmət edəcəkdir.

Beləliklə, Avropa İttifaqı bu istiqamətdə tərəfləri ATƏM-in Minsk Qrupu ilə yaxından əməkdaşlıq etməyə və davamlı siyasi nizamlanmaya nail olmaq üçün üzərilərinə düşənləri yerinə yetirməyə çağırır. Fürsətdən istifadə edərək, Avropa İttifaqı bir daha Minsk Qrupunun səylərini tam şəkildə dəstəklədiyini bəyan edir. Atəşkəsin təsdiq edilməsi təkcə ilk mərhələ deyil, eyni zamanda davamlı siyasi nizamlanmanın əldə edilməsi üçün danışıqların aparılması istiqamətində mühüm səy deməkdir. Avropa İttifaqı ATƏM müşahidəçilərinin regiona göndərilməsi üçün müvafiq razılaşmanın imzalanması məqsədilə avqust ayında danışıqların sürətləndirməsinə dair tərəflərin niyyətini alqışlayır. Belə ki, Avropa İttifaqı münaqişə tərəflərini ATƏM-in müşahidə missiyasının maksimum dərəcədə həyata keçirilməsindən ibarət olan ilk mərhələni dəstəkləməyə çağırır.

Bu kommünike dörd dövlətin mövqeyini bildirir

**Bülleten Aİ 09-1994**
**Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (5/6)**

**Dağlıq Qarabağ**

1.3.5. Avropa İttifaqının Sədrliyi adından Dağlıq Qarabağa dair 15 sentyabr tarixində Brüssel və Bon şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı son günlərdə Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ rəhbərləri tərəfindən ATƏM-in Minsk Qrupunun Sədri səfir Eliassonun regiona səfəri zamanı verilmiş bəyanatları böyük məmnuniyyətlə qarşılayır. Həmin bəyanatlarda tərəflər münaqişənin nizamlanmasına dair razılığın əldə edilməsinə qədər atəşkəsə riayət edəcəkləri ilə bağlı niyyətlərini vurğulamışlar. Bundan əlavə, Avropa İttifaqı məsələ ilə əlaqədar Ermənistan və Azərbaycan hökumətləri, habelə Stepanakert rəhbərliyi tərəfindən verilmiş rəsmi bəyanatları alqışlayır.

Avropa İttifaqı hesab edir ki, atəşkəsin gücləndirilməsi və məsələnin siyasi nizamlanması yolunda bu addım mühüm əhəmiyyətə malikdir. Avropa İttifaqı ATƏM-in Minsk Qrupuna sözügedən bəyanatlarla nəticələnən səylərinə görə minnətdarlığını bildirir və Qrupun Dağlıq Qarabağ regionunda sülhün bərqərar olunması naminə mühüm fəaliyyətini dəstəkləyir. Avropa İttifaqı Minsk Konfransının tezliklə çağırıla biləcəyinə səmimi şəkildə ümid edir.

Nəhayət, Avropa İttifaqı ümid edir ki, münaqişə tərəfləri özlərinin ictimaiyyət üçün nəzərdə tutulmuş bəyanatlarında təmkinlilik nümayiş etdiriləcəkdir. Bundan əlavə, Avropa İttifaqı danışıqlar prosesi üçün münbit və psixoloji nöqteyi nəzərdən əlverişli şəraitin yaradılması üçün tərəflər arasında təmasların davam etdirilməsini tövsiyə edir.

Bu kommünike dörd dövlətin mövqeyini bildirir.